# Qəhrəman obrazları ruhuma daha yaxındır

## Hüsniyyə Mürvətova: "Simam da, səsim də kifayət qədər tanınır"



**Artıq yeni mövsümü salamladıq. Bu mövsümdə ilk müsahibimiz Əməkdar artist, tanınmış aktrisa, dublyaj ustası, qiraətçi Hüsniyyə Mürvətovadır.**

**Səsi və gözəl siması ilə tamaşaçıların sevgisini qazanan aktrisa həm də maraqlı müsahiblərdəndir.**

**- Yeni mövsümün ilk günündə Sizi xoş gördük. İstərdik ilk olaraq geridə qoyduğumuz bu istirahət mövsümündən danışaq. Yayı necə keçirdiniz?**

- Diqqətiniz üçün təşəkkür edirəm. Geridə qoyduğumuz bu mövsümün bir qismini bölgələrimizdə keçirdim. Digər qismini isə bağda başa vurdum. Bundan əlavə, çalışdığım Bakı Bələdiyyə Teatrının yaradıcı heyəti ilə birlikdə Şəki və Qəbələdə qastrol səfərlərində olduq.

**- Adətən sənətçilərimiz istirahəti xaricdə keçirməyə daha çox üstünlük verirlər.**

- Bu təbiidir. Hər kəs fərqli yerləri görmək, başqa ölkələrdə istirahət etmək istəyir. Geridə qoyduğumuz mövsüm mənim cibimə uyğun olmadığına görə xaricə gedə bilmədim. Bu dəfə bölgələrimizdə istirahət etməyə daha çox üstünlük verdim.

**- Artıq yeni mövsüm başlayır. Bu mövsümdən hansı yenilikləri gözləyirsiniz?**

- Əslində bu mövsümdən gözləntilərim çoxdur. Hələ ki gözləmə mövqeyindəyəm. Mən özüm də çox darıxıram. Sənətimin bu gözləmə mövqeyini heç sevmirəm. Çünki səbrsiz insanam. Bizim nə qədər arzularımız olsa da, bu, bir şans məsələsidir. Bilirsiniz ki, bizim sənətimiz bir qədər asılı sənətdir. Rejissorlardan, şirkətlərdən təkliflərin gəlməsini gözləyirik. Mən sənətimi çox sevən və onu dəyərləndirməyi bacaran insanam. Yeni mövsüm üçün bir neçə təklif almışam. Sadəcə olaraq, bu barədə əvvəlcədən danışmaq istəmirəm. Qabaqcadan nəyisə deməyi xoşlamıram. O ki qaldı istəklərimə, xarici layihələrdə iştirak etmək istəyirəm. Hazırda bu yöndə işlər gedir. Bir neçə təklif var. Belə ki, xarici filmlərin birində seçimlər gedir və onlar mənim şəklimi görüb bəyəniblər. Hələ də seçimlər davam edir, biz də onlardan xəbər gözləyirik.

**- Zaman göz qırpımında ötüb keçir, onun qarşısını almaq qeyri-mümkündür. İndi Sizin yaşınızın da ən gözəl çağlarıdır. Biz Sizdən maraqlı layihələr gözləyirik.**

- Bu günümdən, səhnə həyatımdan, işlərimdən narazı deyiləm. Bilirsiniz ki, filmlərin dublyajı ilə məşğulam, şeirlər səsləndirirəm. Mən özüm tək olaraq nə edə biləm, boynuma nə düşürsə, onu da edirəm. O ki qaldı film və seriallarda maraqlı obrazlara, bu, rejissorların işidir. Əlbəttə ki, mən yaratmalıyam. Ömrümüzdən illər gedir və bu illəri geri qaytara bilməyəcəyəm. Mən daha çox işlər görüb, obrazlar yarada bilərdim, əgər hər şey məndən asılı olsaydı.

**- Dublyaj sahəsində əvəzedilməz səslərdənsiniz. Yaşlı nəslin nümayəndələri sovet dövründə filmlərin səsləndirilməsi ilə indiki dövrü müqayisə edir və o dövrün dublyajlarını daha yaxşı hesab edirlər. Siz necə düşünürsünüz?**

- Bu mövzuda heç kimi qınamıram və hər kəsin fikrinə hörmətlə yanaşıram. Biz filmin dublyajını telekanallarda yazırıq. Gün ərzində filmi tərcümə edirik. Əvvəllər isə səsləndirmə işi tamam başqa cür olub. Belə ki, o dövrün filmlərinin səsləndirilməsi bir-iki aya ərsəyə gəlirdi. Orada sinxron səsləndirmə gedirdi. Filmdə rol alan hər aktyora uyğun səsləndirmə aktyoru seçilirdi. Sovet dövründəki filmləri dublyaj etmək üçün böyük bir komanda heyəti işləyirdi. İndi hər şey başqa cürdür. İki-üç saat ərzində nə edə biliriksə, onu da edirik. Bir sözlə, vaxt etibarı ilə əlimizdən gələni əsirgəmirik. Dublyaj etdiyim filmlərin altından mənim imzam getdiyi üçün əlimdən gəldiyi qədər o işə canımı qoyuram. Adıma hörmətlə yanaşaraq boynuma düşəni layiqincə yerinə yetirirəm. Mən səsimi də, işimi də sevirəm və dəyərləndirirəm. Digər televiziyalarda hazırlanan səsləndirilmələri dinləyirəm və onlara da hörmətim var.



**- Hüsniyyə xanım, Sizi qiraətçi kimi də yaxşı tanıyırıq. Səsləndirdiyiniz şeirləri də sevərək dinləyirik. Maraqlıdır, sənətçilərimizin qiraətçi kimi az çalışdığı bir vaxtda bu sahə Sizə nəsə qazandırırmı?**

- Bu sahədə heç bir qazanc əldə etmirəm. Şeirləri sevirəm və sevdiyim şeirləri səsləndirirəm.

**- Sizi səsi özündən daha məşhur aktrisa hesab etmək olarmı?**

- (gülür) Bunu mənə bir neçə dəfə deyiblər. Düşünürəm ki, hansının daha məşhur olduğunu tamaşaçılar daha yaxşı bilərlər. Hesab edirəm ki, simam da, səsim də kifayət qədər tanınır. Əgər deyirsinizsə ki, səsim məşhurdur, qoy olsun. Bunun nəyi pisdir ki? Mən buna ancaq sevinə bilərəm.

**- Tanrı tərəfindən Sizə hədiyyə edilən səsi qorumaq üçün nələr edirsiniz?**

- Səsimi qorumaq üçün heç nədən istifadə etmirəm. Dondurma da yeyirəm, tum da çırtlayıram, soyuq su da içirəm. Bir az çılğın insanam və istədiyimi etməyi xoşlayıram. Misal üçün, əgər ürəyim soyuq su içmək istəyirsə, bunu özümə qadağa qoymuram, içirəm. Mən belə şeylərə önəm vermirəm. İnsanları qoruyan Allahdır. Öz üzərimizdə titizlik edib, nəyisə etməklə deyil. Əgər bizi yaradan istəsə, sağlam olacağıq, istəməsə... Yəni hər şey bəndənin deyil, Allahın əlindədir.

**- Sizi hər zaman baxımlı və eyni çəkidə görürük. Formada qalmaq üçün nələr edirsiniz?**

- Mən təbiətən beləyəm. Nə qədər yeməyimdən asılı olmayaraq, kökəlmirəm. Biz ailəlikcə beləyik. Kökəlməyə meyilli deyilik. Bu, gendən gələn bir şeydir. Formam təbiətən belə olsa da, dərimə qulluq edirəm. Mütəmadi olaraq kosmetoloqa gedirəm. Gözəl görünməyi sevirəm. Hesab edirəm ki, hər bir xanım baxımlı olmalıdır.

**- Sizi ilk dəfə 1998-ci ildə "Qırmızı qar" filmində izləmişdim və oradakı qəhrəman qadın obrazınız beynimə həkk olunmuşdu. Ümumiyyətlə, indiyə kimi canlandırdığınız obrazlara nəzər yetirdikdə əminliklə deyə bilərik ki, qəhrəman obrazları ifanızda daha yaxşı canlanır. Bəs indi necə, qəhrəman qadın obrazları canlandırırsınızmı?**

- Mən çalışdığım Bakı Bələdiyyə Teatrında hər zaman qəhrəman qadın obrazları yaratmışam. Vətənpərvər, öz canını fəda edən, şəhid olan xanımların obrazlarını canlandırmışam. Bu gün ölkəmizdə tarixi günlərdə verilişlərimizdə əsgərimizə, torpağımıza aid şeirlər səsləndirirəm. Repertuarımda vətənimə, torpağıma, əsgərlərimizə aid şeirlər var. Bu xarakterimlə qürur duyuram. Çox istəyərdim ki, filmdə də belə obrazlar canlandırım. Arzulayaram ki, müharibə mövzusunda olan filmlərə çəkilim. Düzdür, romantika, sevgi tipli obrazları da özümə məxsus şəkildə canlandıraram. Ancaq qəhrəman obrazları mənim ruhuma daha yaxındır. Rejissorlarımız mənə belə bir obraz təklif etsələr, yəqin ki, onu dəyərləndirərdim.

**- Digər teatrların fəaliyyətinə baxanda sanki Bakı Bələdiyyə Teatrı bir qədər kölgədə qalıb. Daha böyük səhnədə çıxış etmək istəmirsinizmi?**

- Əvvəla, bizim teatrımızın Xalq artistimiz Amaliya Pənahova kimi gözəl rəhbəri var. Sizcə, onun rəhbərlik etdiyi teatr kölgədə qala bilərmi? Bu fikirlə razı deyiləm. Sadəcə olaraq, bizim teatrın binası yoxdur. Bizim teatrımızın peşəkar və istedadlı yaradıcı kollektivi olsa da, şəraitimiz yoxdur. Şəraitsiz, soyuq məkanda məşqlər edirik. Biz yorulmadan, usanmadan çalışırıq. Bölgələrə, xaricə qastrol səfərlərinə gedirik. Əgər binamız yoxdursa, bu o demək deyil ki, biz kölgədə qalmışıq. O ki qaldı digər teatrların səhnəsindəki çıxışıma, mən öz yaradıcı kollektivimizi çox sevirəm. Bütün teatrlara hörmətim var. Teatrlar ölkəmizə məxsusdur və mən də ölkəmizi çox sevirəm. Burada heç bir qəbahət yoxdur. Ancaq bizim kollektivimiz çox mehribandır. Rəhbərimiz isə bizə çox qayğı göstərir. Amaliya xanım bizə rəhbər kimi deyil, bir ana kimi münasibət göstərir. Bunun üçün də indiyə qədər bu barədə heç düşünməmişəm.

**- Bir sənətçi kimi Sizi nə narahat edir?**

- Məni çox şey narahat edir. Çox istərdim ki, aktyorların rifahı yaxşılaşsın. Bizim sənətimizə dəyər versinlər. Bugünkü filmlərdə, seriallarda peşəkar kadrlardan daha çox istifadə etsinlər. Əgər aktyor görəcəyi işə görə çox pul istəyirsə, onu sıradan çıxarmasınlar. Dəyərini bilən sənətkarlara lazımi qiyməti versinlər. Biz dəyərimizi bildiyimiz üçün özümüzü lazımlı, lazımsız yerlərə məcburən qəbul etdirmirik. Onun üçün də az əvvəl qeyd etdim ki, hələ də gözləmə mövqeyindəyik. İstəyirik ki, bizə könlümüzcə olan təkliflər gəlsin. Mən özümə, sənətimə hörmət edirəm və buna görə də öz sənətimə çox arxayınam. Bir az da aktyorların qonorarları daha yüksək olsa, çox yaxşı olar. Bu məsələ məni çox narahat edir. İllər keçsə də, düzələcəyinə ümid etdiyimiz bu məsələdə heç bir dəyişiklik olmur. Həyat insana bir dəfə verilir.

Əslində mən çox pozitiv insanam. Hər zaman hər şeyin yaxşı olacağına dair ümidlərim olub. Ancaq görürəm ki, bu məsələdə heç nə dəyişilmir. Bu da məni çox məyus edir.

**- Sizin peşəkar sənətçi olmağınıza heç bir şübhəmiz yoxdur. Bəs görəsən Hüsniyyə xanım necə anadır? Övladınıza kifayət qədər zaman ayıra bilirsinizmi?**

- Əlbəttə. İlk növbədə vaxtımı oğluma sərf edirəm. Hara gedirəmsə, oğlumu özümlə aparıram. Biz onunla demək olar ki, hər zaman bir yerdə oluruq. İşə gedəndə ondan ayrılmaq məcburiyyətində qalıram. Bəzən olur ki, işə gedəndə onun dərsləri olmadığı vaxtlarda oğlumu da özümlə aparıram.

**- Bəs oğlunuz Orxanın Sizin sənətinizə münasibəti necədir?**

- Oğlum mənimlə fəxr edir. O, mənə "Kraliçam" deyə müraciət edir. Hər zaman məni tərifləyir, gözəl sözlər deyir. Mən qəmgin olanda Orxan gözəl sözlər deyərək əhvalımı yaxşılaşdırır. Oğlum mənim ən yaxın dostum və məsləhətçimdir. Orxanın 16 yaşı olsa da, hərdən elə gözəl məsləhətlər verir ki O, mənim hər şeyimdir...

**Xəyalə Rəis**

